# RUH QOHUMUM

## Hüseyn Kürdoğlu ilə beş saatlıq söhbət



**Bu şəhərin ilkindi çağında tanrıya üz tutub, şeir-söz tanrılarını bir-bir yada salıb, adını anıb, ruhlarını harayıma çağırıb onlardan bir rica, bir təvəqqe eləmək istəyirəm. Qoy mənə kömək olsunlar. Beş-on kəlmə söz deməkdi amacım, istəyim. Bu söz hər zaman deyəcəyim sözdən deyil.**

Gözlərimi çağlar bulağa, ürəyimi çalxalanan ümmana döndərən bu söz bir ruh adamı, bir şair, bir sənətkar haqqındadır. Aramızda on beş il yaş fərqi olsa da o, mənim dostum idi. Özü də bu dostluğun təməlini özü qoymuşdu.

İlk tanışlığımızda (ancaq imzalarımız çoxdanın tanışları idi) - Ay Musa, sənin nə pak ürəyin var, bu gündən sən mənim dostumsan - demişdi. Demişdi və ömrü boyu bu dostluqda öz tərəfindən sabitqədəm olmuşdu.

Vallah, ən çətini budur ki, onun haqqında keçmiş zamanda danışmaq istəmirəm. Öldüyü günü, ayı, ili birdəfəlik unutmaq istəyirəm, elə unutmuşam da, o, mənim üçün, onun ürəyinə bələd, şeirinə bələd minlərlə oxucuları, qədir-qiymət bilən az sayda qələm dostları üçün sağdır, heç zaman ölməyəcək, ruh adamları ölmürlər axı!

İstəyirəm mən onun ruhu ilə baş-başa verim, çəkinib, utanıb sağlığında özünə demədiyim sözləri ruhuna deyim. Cisim gəldi-gedər, ruh əbədidir. Əslində onun heç indi də bizim tərifimizə, sözümüzə ehtiyacı yoxdur, o, öz qiymətini bilən adam idi, şeirinin, sözünün dəyəri özünə hamıdan yaxşı məlum idi. Elə buna görə də bu fani dünyada heç kəsdən tərif-zad ummadı, umsaydı, bir çoxları kimi kimlərəsə üz tutsaydı, hər kitabına, kitab nədir hər şeirinə, hər misrasına ayrıca məqalələr həsr etdirərdi.

O, şeirə-sənətə bir çoxları kimi gəlməmişdi! Minillik şeirimizin dərin qatlarından süzülüb gəlmişdi. Nizaminin, Nəsiminin, Füzulinin, Sarı Aşığın, Vaqifin, Ələsgərin, Səməd Vurğunun varisiydi. Sənət dünyasında ölməz klassiklərimizdən halallıq almışdı. Onların bağrından qopub gəlmişdi.

Bu cür gələnlərin gedişi olmur. Elə ona görə də yaxın zaman kəsiyində baş verən bir hadisəni - onun bu dünyadan tanrı hökmüylə yox, öz hökmüylə gedişini - cismən gedişini unutmuşam, bu cür insanlar ruh kimi gəldikləri üçün getmirlər. Dünyada əbədi qalırlar:

***Bayatı çağıran Həkəriyəm mən,***
***Yurdumun şirini-şəkəriyəm mən.***
***Sarıldım boynuna Arazın, Kürün***
***Sənətin, ilhamın ülkəriyəm mən.***
***Olmadım ağlımın ağası-bu gün,***
***Odur ki, qəlbimin nökəriyəm mən.***
***Dünyanın məhşəri qorxutmaz məni,***
***Özüm ki, özümün məhşəriyəm mən.***
***Bağrından doğuldum eşqin, ülfətin***
***Həzin nəğməsiyəm əbədiyyətin!***

Görürsünüzmü necə gözəl deyib. Şeirdə, sənətdə öz yerini necə sərrast, necə dəqiq bəlirləyib.

Bundan artığını kim deyəcəkdi. Kimin qələminin ürəyi çatacaqdı, (qüdrəti demirəm) bu qiyməti verməyə? Yəqin ki, söhbətimin kimdən getdiyi sizlərə də məlum oldu.

Hüseyn Kürdoğlu - şeirimizin, sözümüzün bulaq təmizliyi, Kür axarıydı o. Həkəri coşqunluğunu, Araz salğarını yaşadırdı özündə. Milli poeziyamızın şah budaqlarından sayılırdı.

Hüseyn Kürdoğlu dağ silsiləli çağdaş poeziyamızın ən uca, ən görümlü zirvələrindən biriydi. Biriydi yox ey, xalq ruhuna bələdliyi, söz, ifadə, təcnis ustadlığı ilə, folklora, şifahi xalq ədəbiyyatına yaxınlığı, doğmalığı nisbətində sözə həssaslığı, söz üstündəki zərgər naxışları - sözə qədərindən artıq yaradıcı münasibəti ilə, tək idi, yek idi, yeganə idi desəm fikrimi daha dəqiq ifadə etmiş olaram. Qoy bu deyimim kimsənin xətrinə dəyməsin.

Məni o yandırır ki, bu sözləri ona vaxtında demədik, o, zamanında öyülmədi, şeirlərindəki, sözündəki dərin qatlar aşkarlanmadı, doğru-dürüst qiymətini almadı. Yox, Musa, sənin bu sözünlə də razı deyiləm. O, gün kimi aşkar, ay kimi nurlu, bulaq kimi dumduru bir yaradıcı idi, bir də ki, aşkarın nəyi aşkar olacaqdı ki...

***Bəxtimin ulduzu tez qaralmasın,***
***Könlüm ocağında köz qaralmasın.***
***Ey şair qələmim, elə yarat ki,***
***Günəş qaralsa da, söz qaralmasın.***

Sözə Füzuli qiymətindən axarlanıb gəlirdi bu kəlamlar. Kürdoğlu sözü ustad sözüydü, tanrı istəyindən güc alan sözüydü.

***Tanrı sevgisidir hər ayə bizə,***
***Haqqın kəlamıdır sərmayə bizə.***
***Dünyanı yaradan dünya mülkünü***
***Verir nəsil-nəsil kirayə bizə!***

Yox, vallah amacım nə onun şeirlərini öyməkdi, nə də təhlil etmək, get-gedə məqsədimdən, məramımdan da uzaqlaşıram...

Mən onun ruhuna üz tutub, elə-belə dərdləşmək istəyirəm. Söhbət eləmək keçir könlümdən. İyirmi-otuz il bundan əvvəlki kimi...

Yadındamı Kürdoğlu, sən, mən, bir də Dədə Camal (fəlsəfə elmləri doktoru, professor Camal Mustafayev) Akademiya bağında rastlaşdıq, hər ikiniz vaxtınızın olduqca qısa olduğunu desəniz də saatlarla söhbət elədiniz. Mən də o söhbətlərin içindəydim. Dünyəvi biliklərdən, fəlsəfədən, ədəbiyyatdan, şeirdən, sözdən gedirdi o söhbət. Siz bir-birinizi kəşf elədiniz o söhbətdə. Dədə Camal sənin doğrudan da söz sərrafı, ustad olduğunun fərqinə vardı. Sən də Dədə Camala vurulmuşdun. Nə qədər tələssən də ayrılmaq istəmirdin.

Bədii söz, poetik söz öz fəlsəfi dərkini tapmışdı o söhbətdə.

Siz hər ikiniz ara-sıra məni də o söhbətə qatmaq istəyirdiniz. Bu, əlbəttə, hər ikinizin böyüklüyündən gəlirdi. Həmin gün, həmin an üçün mən o söhbətə hazır deyildim, bəlkə heç indi də hazır deyiləm. O söhbətə hazır olmaq üçün gərək ən azı bu şeirini oxumuş olaydım:

*Söz köhləni min il gərək minilə,*
*Yaxşı sözün ömrü çatar min ilə.*
*Uca tanrı hesab çəksin min ilə*
*Kürdoğluyam,*
*uca tutdum sözü mən.*

O söhbətdən sonra mən klassiklərimizi təzədən oxumağa başladım. Şeirimin, sözümün üstündə əsim-əsim əsdim. Çox oxuyub az yazmağa qərarlı oldum. Sonralar sən o söhbətdən doğulan bir şeirini yazdın və Dədə Camala ünvanladın. Sən elm, irfan sahibiydin, Kürdoğlu, adamlardan qaçmağın, öz hücrənə çəkilməyin, beton divarlar arasında əsə-əsə ürəyində çatdığın ocaq - elm, irfan ocağıydı. Sən bu ocaqda yana-yana pürkamal olurdun, ustadlaşırdın!

*Dağlara üz tut, könül,*
*bulaqlar gözünə var,*
*Sevdalı günlərinin*
*ot basmış izinə var.*
*Mən adsız bir dağam ki,*
*sinəmdə xəzinə var,*
*Qafildir çağdaşlarım,*
*hələ tapmamış məni.*

Sən düz deyirdin, Kürdoğlu, biz səni görmürdük, başımız özümüzə qarışmışdı, öz ad-sanımıza, ordenimizə, medalımıza, hər on ildən bir keçirilən təntənəli yubileylərimizə, nəyə, nələrə...

Biz səni görə bilməzdik başı uca dağlar kimi ağ, məğrur, mərd, həmişə şax, düz sözünü deyən qoca Kürdoğlu! Sən o günlərdə bu cür şeirlər yazırdın:

*Şad olaram əcəl məni uyutsa,*
*Yanğınımı torpaq altda soyutsa,*
*Yer üzünə min kərə də qayıtsa,*
*Mənim ruhum mələr keçər*
*dünyadan.*

Sən yazırdın ki:

*Tanımadıq yamanları,*
*Dişindən qan damanları.*
*Tale axır zamanları*
*Teyxaca qara gətirib.*

*Göy tutmaz bu qədər ahı,*
*Açılsın fələk dərgahı.*
*"Allah" deməkdən allahı,*
*Şairlər zara gətirib.*

Sən əsl şairiydin, tanrının, haqqın ətəyindən yapışardın dar günündə. Hansı imkan sahibininsə, hansı məmurunsa şəninə şeir yazan şair deyildin.

Fəxri ad, mükafat, fərdi təqaüd üçün yuxarıları narahat eləyən şair deyildin. Səndən ötrü bircə yuxarı vardı - ulu tanrı! O da sənin üçün ulu sözdə, ölməz sözdə təcəlla edirdi...

Sənin sözdən qeyri dərdi-sərin, sözdən artıq ağrı-acın yox idi. Sən elə sağlığında ruha dönmüşdün. Göylərlə yaşayırdın, yerlərlə, cismani qayğılarla işin yox idi. Bəlkə heç vaxtlı-vaxtında yeyib-içmirdin də.

Bu sözü deməyə də, səni, əs-

təğfurullah, ilahiləşdirməyə də məni bu şeirin vadar elədi. Qoy bu şeirdən sətirləri sənin ruhuna da oxuyum:

*Bazar qan ağlayır deyə*
*Bu qədər ah-zar eyləmə.*
*Gəl məni bizar eyləmə*
*Sən allah, qoy şeir yazım.*

*Dünya bir gün düşər çəmə*
*Divan tutar ağlı kəmə.*
*Ət tapılmır? - cəhənnəmə,*
*Sən allah, qoy şeir yazım.*

*Onsuz da acıdır həyat*
*Qoy düşünüm rahat-rahat*
*Soyundur əynimi də sat,*
*Sən allah, qoy şeir yazım.*

*Sənsən ömrümə yaraşıq,*
*Gülüşün könlümə işıq,*
*Yağ yoxsa da bircə qaşıq*
*Sən allah, qoy şeir yazım.*

Kürdoğlu, sən öz kasıb komanda ululara layiq bir ömür yaşadın. Halal, uca, müqəddəs, minnətsiz bir sənətkar ömrü! Bu ömür bir günün-beş günün, beş ilin - on ilin, hətta yüz ilin xırda qayğılarına deyil, əbədiyyətə hesablanmışdı. Uca tanrıdan gəlirdi bu ömrün irili-xırdalı çətinliklərlə müşayiət olunan, enişli-yoxuşlu yolları da. Tanrıydı səni qoca çağında, xəstə vaxtında Laçın həsrəti ilə, Vətən yanğısıyla göyüm-göyüm göynədən.

Bu göynək, bu ağrı olmasaydı, bu ağrılı-göynəkli şeirlər də yaranmazdı.

*Görən tanrı mənə möhlət verərmi,*
*Laçınımı - ilk vətəni görməyə?!*

Qoy sənə bu şeirindən də bəndlər oxuyum, ulu Kürdoğlu, haqqın dərgahına gedən yolda bağrı para-para olan şair qardaşım:

*Gözlərimdə sönəcəkmi diləyim,*
*Bağlanıbdır qanadlarım, lələyim.*
*Sinəm deşib çıxmaq istər ürəyim*
*Dağ bürüyən şehli çəni görməyə!*

*Qanım hopdu torpağına, daşına,*
*Çay dayanar, baxar gözüm yaşına.*
*Xəyallarım dönər zəmi quşuna,*
*Ağ sünbüldə qızıl dəni görməyə!*

*Sona yetmir, bu qan, bu can bazarı,*
*Can Kürdoğlu, ha sızılda, ha zarı.*
*Arzugözəm, ey atamın məzarı,*
*Bircə səni, bircə səni görməyə.*

Can Kürdoğlu, arzun ürəyində getdin, bu tarixin bizə yamanlığı, tanrının görkəzməsi idi.

Üzüqara qaldıq yanında. Nə canından artıq sevdiyin Vətənini qoruya bildik, nə də canını... Əslində sən Şuşa getdiyi gün, Laçın işğal olunduğu vaxt canını tapşırmışdın. Canından ağrı kimi sıyrılıb çıxan, canımıza od salan, indi bizi sızım-sızım sızladan sözə tapşırmışdın:

*Bənzəyirdi dağ başında ağ taca,*
*Tacımızı kimlər qoydu hərraca?*
*Harsın oğlu dırmaşdı yal-yamaca,*
*Yiyə çıxdı cəlalına Şuşanın.*

Sən dözmürdün bu haqsızlığa, sən inləyirdin, hıçqırırdın, üsyan eləyirdin:

*Qırılsaq da əksərimiz, yarımız,*
*Bu tilsimdən gərək çıxsın yarımız.*
*Qalmadımı qeyrətimiz, arımız,*
*Çarə tapaq məlalına Şuşanın.*
*Bir yol açaq iqbalına Şuşanın.*

Sən şəhid oldun, Vətən şəhidi, Torpaq şəhidi, namus-qeyrət şəhidi! Yalançı, cismani ağrılar səni bu yola sürükləyə bilməzdi! Sən mənəvi ağrılarının qurbanı oldun.

Sən Vətənsiz an-an, saniyə-saniyə, ay-ay, il-il göynədin, ayların-illərin yaddaşına yaddaqalan, ağrılı, göynəkli şeirlərinlə köçdün, şəhid qardaşım. Günahsız şəhidlərin bihudə qanına dözə bilmədin, Vətənin vətəndən zorla aralanmış parası paraladı ürəyini:

*Dərya varmı odumuzu soyutsun,*
*Layla varmı yaralını uyutsun?!*
*Yurd eşqimiz özümüzə qayıtsın,*
*Bundan qeyri bizə loğman olurmu?!*
*Yeddi ildir yaramızdan qan axır,*
*Belə tarix, belə dövran olurmu?*

Oldu belə tarix, belə dövran ağsaçlı uca Kürdoğlu, çox heyiflər ki, biz də belə tarixin, belə dövranın içində olduq.

*Əzəldən Arazboyu*
*paralanmış Vətənin*
*İndi də parasının parası*
*qalmış bizə.*
*Yeddi rəngin altısı*
*yağmalanmış nə vaxtdan,*
*Dönüb yas paltarına*
*qarası qalmış bizə.*
*Qarabağ cənnətini*
*röyamızda görürük,*
*O möcüzə dağların*
*harası qalmış bizə?!*
*Ay haray, nə durmuşuq,*
*gör nələr gedib əldən*
*Şəhidlər məzarınca*
*yarası qalmış bizə.*

Sən başqaları kimi sadəcə şeir yazmırdın ki, ürəyini ilmə-ilmə sökür, duyğularına calaq eləyirdin, ilhamına yedirirdin qanlı-qanlı...

Ona görə də şeirin canlı olurdu, qanlı olurdu, çəkirdi, cəzb eləyirdi... Sözünün sərrastlığı, şəkildən-şəkilə dəyişən ahənginin ahənrübalığı da bir sənət sirridir, möcüzəyəbənzər bir yaşantıdır, ən sadə deyimlə desək haqq vergisidir.

Əslində haqq vergisi sözü sənin poeziyanın boyuna biçilmişdi... Sən Kürdoğlu deyildin, qurdoğluydun, indi sənət şedevrlərinə dönən bir çox şeirlərini qurd ürəyi yeyib yazırdın:

*Yoxdur ədalət divanı,*
*Kim kəsər tökülən qanı?!*
*El saxlar şair olanı*
*Eldə də ellik qalmadı.*

Yaxud:

*Od püskürüb satqınları yandıraq,*
*Kar dünyanı, kor dünyanı qandıraq.*
*Divlərin can şüşəsini sındıraq*
*Yalvarışla divdən aman olurmu?*

Qoy elə bu bəndini də örnək gətirim:

*Hökmdar pul olan yerdə,*
*Ədalət qul olan yerdə.*
*Yamanlıq bol olan yerdə*
*Yaxşılıq xoşa gəlmədi.*

Eh, hansı birini deyim, örnək gətirəsi olsam gərək indi stolumun üstündə olan sənin sevimli qardaşın, mənim əziz dostum Şirindil Alışanlının qədirbilənliklə nəşr elədiyi "Yurduma qurbandır sözüm" kitabını başdan-başa sənə bir də oxuyam.

Bu imkan xaricindədir. Mən bu kitabı çağdaş poeziyamızın örnəyi, uğuru, tutiyası, tutalcağı sayıram, şeirə-sözə az da olsa hörməti qalan bütün oxucularımızı bu kitabı tapmağa, oxumağa səsləyirəm. Sənin şeirlərində nəinki sözlər, kəlmələr, hətta hərflər, səslər də bir-birinə doğma idi, sən sözləri, kəlmələri ürəyinin odunda-közündə əridirdin, bir-birinə qatırdın. Onlar qələmindən axanda odlu olurdu, hərarətli olurdu, ürəklərə bir məlhəmlik, istilik bəxş edirdi:

*Dərd ilə çıxdım güləşə,*
*Fəndim yox, yıxa bilmirəm.*
*Sal qaya düşüb üstümə*
*Altından çıxa bilmirəm.*

*Bir çeşməyəm səsim incə,*
*Hey tuturam gündüz, gecə.*
*Axıram çaya yetincə*
*Çay udur, axa bilmirəm.*

*Sinəmdə eşqin nəfəsi,*
*Kərəmin od tutan səsi.*
*Özümdən qeyri bir kəsi*
*Yandırıb-yaxa bilmirəm.*

*Bilmirəm hara-haradır,*
*Bağrımın başı yaradır.*
*Baxtımın üzü qaradır*
*Üzünə baxa bilmirəm.*

Mən də bu şeirləri həyəcansız oxuya bilmirəm. Özümdən xəbərsiz göz yaşlarım axır, süzülür. Sözün gücünü, nüvəsini bax bu dönəmdə axtarmaq, bu göz yaşlarında aramaq gərəkdir.

Füzuli deyir ki:

*Şəbi-hicran yanar canım,*
*tökər qan çeşmi-giryanım,*
*Oyadar xəlqi əfğanım,*
*qara bəxtim oyanmazmı?*

Ondan beş yüz il sonra sən yazırdın ki:

*Kürdoğlu, bu gen dünyada,*
*Sənə bir xoş gün olmazmı?!*
*Min arzun var ürəyində*
*Onun biri çin olmazmı?*

*Safdır sözün billur kimi,*
*Haqdan verilmiş nur kimi.*
*Qəm tutulub quldur kimi*
*Sinəndən sürgün olmazmı?!*

*Hər gündə bir qanlı qada,*
*Göylər də yetmir imdada.*
*Ah, görəsən bu dünyada*
*Eşqin özü din olmazmı?!*

Sən dahi Füzulinin haqqı olan, ərkli, doğma bir varisi kimi bütün yaradıcılığın boyu eşqə, məhəbbətə, gerçək, ürəkdən gələn səmimi bir istəyə əsl din kimi sitayiş elədin, öydün, əzizlədin, yanar ürəyindən qopan alovlu kəlmələrin, misraların oduna, atəşinə büründün. Sən bilirdin ki:

*Söz də vaxtsız xəzəl olur,*
*Çıxmasa ustad əlindən.*

Sən beləcə öz ustadlığına rəvac verir, canından belə uca tutduğun sözün qeyrətini çəkirdin, onun keşiyində dayanırdın. Dayanacaqlar əliqələmlilərlə dolu olsa da, sənin qələmin ayrı qələm idi, söz onun ucundan ayrı cür axırdı, o qələmin materialı nədən idi, onu bir sən bilirdin, bir də o qələmi sənə bəxş edən qadir allah! Sən allahın əliqələmlisiydin, Kürdoğlu!

*Sözlərimdə yeddirəngli*
*gül butası var,*
*Dürlü-dürlü dil naxışı,*
*dil butası var,*
*Qonaqlara göstərilən*
*qədim xalı tək*
*Başqa yerdə tapılmayan*
*el butası var.*

Sən bizim el butalı, gül butalı şairimiz idin. Öydüyün, oxşadığın, oduna pərvanə olduğun eləgünə yaxşı tanıda bilmədik səni. Ortalıqda çox əngəllər alt-üst vurdu, qamçı çəkdi, at oynatdı.

*Pərvanə qəbridi çıraq kölgəsi,*
*Bülbül məkanıdır budaq kölgəsi.*
*Yanaram, kölgəni çəksən başımdan*
*Düşsə də üstünə min dağ kölgəsi.*

- deyirdin. Vallah, sən söz qalanı elə həssas, elə ustalıqla ucaltmısan ki, üstünə heç bir dağın kölgəsi düşə bilməz. Əsl şeirin, ürəkdən qopan, ilahidən gələn şeirin təkcə məkanı var, zamanı yoxdu. Sözə can verəndə, yəni canından kəsib sözün ömrünə calayanda söz canlı olur, diri olur, lap üstündən əsrlər ötsə də...

Sənin şeirlərin bax belə şeirlərdəndi, mənim ruh qardaşım:

*Dolama yolları kəsə gəlmişəm,*
*Bir acı xəbərə, səsə gəlmişəm.*
*Kasıblər qayada bitən palıdı*
*Eşidib, dağlara yasa gəlmişəm.*

*Yolunu görmədim hamar dünyanın,*
*Ovcuna göz yaşı damar dünyanın.*
*Qələmim iynədir, sətirlərim sap,*
*Cırıq köynəyini yamar dünyanın.*

Hə, əziz Kürdoğlu bir görüşümüz də heç yadımdan çıxmır, o görüşdə sənin bütün şairlərimizi (əlbəttə, söz əsl şairlərdən gedir) birər-birər oxumağının, oxumaq nədir bilməyinin, yaşantılarını bir-

baş ürəyinə köçürməyinin şahidi oldum.

Sənin qonşun qələm dostum, gözəl şairimiz İsa İsmayılzadənin yas mərasiminə getmişdim. Sən həyətdə idman paltarında özün öz əllərinlə əkib-becərdiyin bağçada beli əlinə dayaq verib mən tərəfə boylanırdın: - hə, Musa, bu da növbəti bir görüş, görürsənmi odu keçirib, külü ilə oynayıram - dedin - Laçın kimi bir bağı talanmışın indi burda bağça salmaq istəməsi sənə gülməli görünmürmü?!

Mən onda sənə ürək-dirək verdim. Laçının - əsir torpağımızın tezliklə alınacağını, azad olunacağını dedim. Sən eləcə belə söykənimli vəziyyətdə üzümə diqqətlə baxıb dedin: - Musa, İsanın çadırından təzəcə çıxıb bura gəlmişəm. Bir culoy ağlamışam da. İsa yaman tez getdi.

Yaxşı şairləri dövran tez götürür aradan. Torpaqların qayıtmağına mənim də böyük inamım var. Əgər o inam olmasa, bax bu qoca Kürdoğlunun canı üçün, bircə gün də yaşamaram! O, inamdan əlini kim üzdü, kimlər üzdü, Kürdoğlu? Bəlkə indi mənə deyəsən, təkcə mənə...

Məni o yandırır ki, bu boyda dağı olan, dünyanın, vətənin, torpağın dərdini çəkən böyük şair öz sərvətli yurdunda çörək dərdi çəkənlərin də dərdini çəkirdi:

*Bir parça çörəkdən yana*
*atəşlərə yandıq*
*Dünya bizi xar eylədi,*
*dövrandan usandıq -*
*Dağ çayları tək sərsəri*
*sellərlə bulandıq*
*Bir parça çörəkdən yana.*

Sənin dost dediyin, balaca qardaş saydığın Musa Ələkbərli də səndən xəbərsiz eyni dərdi çəkir, eyni ağrını yaşayırdı həmin keçid dövründə:

*Yeni ilin hədiyyəsi ehtiyac,*
*Bu həyatın nə amansız üzü var.*
*Beş-on kartof, beş-üç soğan,*
*bir az yağ*
*Köhnə ilin hələ evdə izi var.*

Köçümü köçə qoşmuram, vallah. Elə şeirlərini və bu şeirlərdə ömrünün-gününün elə səhifələrini oxuya bildim ki, bizim ən yaxın dost, ən doğma qardaş olduğumuzu mənə gözyaşlarım dedi, Vətən, torpaq yanğısını öz ürəyimdə tapdığım üçündür ki, dəryana baş vurmuşam, üzüb sahilə çıxa bilmirəm.

Sən sevdalı kişiydin, Kürdoğlu! Saysız-hesabsız sevgi şeirlərin ustalıqda, ustadlıqda Sarı Aşığı gözümüzdə daha da ucaldan, mən bu sözü tam məsuliyyətimlə deyirəm, bəzi məqamlarda ondan da ucada duran cinasların, təcnislərin minillik mənəvi sərvətlərimizin ən qiymətli nümunələri kimi tarixdə qalacaq, tarixləşəcək.

Deyəsən səni yoruram artıq. Deyirsən, "ay Musa, məni təriflməyəmi çağırırdın? Bəlkə sənə yad idim, bəlkə mənim xasiyyətimə, təvazökarlığıma bələdliyin yox idi? Yaxşı tanıyırdınsa onda bu nə söhbətdi eləyirsən?!"

*Bir dərd ki, dindirir məni,*
*Ucaldır, endirir məni.*
*Ölüncə yandırır məni*
*Ona sevda deyirəm.*

Bir dəfə də...

Eh, nə bu "bir dəfə"lər tükənəndi, nə mənim sənin ruhunla söhbətim...

Qələm dostun, eloğlun Ağa Laçınlı ilə mənim bir xahişimə getmişdin imkan, hökm yiyəsi bir eloğlunun yanına. Ağa Laçınlı haqqında yazdığım xatirədə bunu bütün təfərrüatı ilə açıqladığım üçün burda açıb-ağartmıram. Həmin adamın:

- Musa Gədəbəyli, siz Laçınlı... Bu xahişi belə ötkəmliklə, canıyananlıqla eləməyinizi başa düşə bilmirəm. Onda sən əlini o kişinin başına vurub dedin: - Sənin bu başın haqqı, bu Hüseynin canı üçün Musa mənim ən yaxın qohumumdu. O, kişi də bu anda inanıb mənalı-mənalı gülümsündü və o işi düzəltdi. Biz şad-xürrəm onun otağından çölə çıxanda Ağanı gülmək tutdu:

- Ə Hüseyn, o boyda kişinin canını niyə yalandan peçatlatdın, birdən xəbər tutar, eşidər, bilər.

Onda sən özünəməxsus təbəssümlə: Ağa, əziz canın üçün düz demişəm, Musa elə sənin də qohumundur, təmiz, saf qəlbi, pak ruhu ilə! Musa ilə min ilin qohuyam. Ə, bə nədən ötrü gəlmişik, o, şair, ruh adamı, bizimlə qohum olmasaydı, burda - o, kişinin yanında nə işimiz vardı?

Hə, qoca Kürdoğlu, ruhumun doğması-əzizi, mənim könül, ürək qohumum, artıq dan yeri ağarır, səninlə söhbətin vaxtı-vədəsi sona yetir. Tanrı dərgahında görüşənədək, əziz qardaş!

"Dan yeri ağarır" dedim, sən bütün şeirlərini həmin vaxtlarda yazırdın, ürək, könül nəğmələrini səhər havasına kökləyir, dünyanın duru vaxtına, təmizliyə, saflığa oxuyurdun.

Sən haqq aşığıydın Kürdoğlu, əsl haqq aşığı!

*Həmişə dan yeri şeir yazıram,*
*Xeyir şairiyəm, xeyir yazıram.*
*Sanma ki, zülm ilə*
*söz axtarıram,*
*Sübhün mələkləri deyir,*
*yazıram.*

**• Musa ƏLƏKBƏRLİ**